**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

---

*Əlyazması hüququnda*

**RAYİHƏ ŞAİQ QIZI MƏMMƏDLİ**

# AZƏRBAYCANIN QƏDİM DÖVR BƏDİİ METAL SƏNƏTİ

**İxtisas: 6218.01 – Dekorativ-tətbiqi sənət**

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | ***Rasim Səməd oğlu Əfəndi***<br>akademik |
| **Elmi məsləhətçi:** | ***Telman İsmayıl oğlu İbrahimov***<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Rəsmi opponentlər:** | ***Sevil Yusif qızı Sadıxova***<br>sənətşünaslıq üzrə elmlər doktoru, dosent |
| | ***Toğrul Rasim oğlu Əfəndiyev***<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Rəssamlar İttifaqı** |

Müdafiə " **30** " **sentyabr 2013**-cü il tarixində saat **11.00**-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdindəki FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı, H.Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "30 " avqust 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.191 Daimi Dissertasiya**
**Şurasının elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z. Əsgərova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan ərazisində metalişləmə sənəti hələ Eneolit (e.ə. IV-V əsrlər) dövründə meydana gəlmiş bölgələrdən biridir. Tunc dövründə (e.ə. IV-II minilliklər) metal emalı elə bir səviyyəyə çatır ki, bu zaman bədii metalın ümümi metalişləmə sənətindən ayrılma prosesi baş verir.

E.ə. I minillikdə tarixi Azərbaycan ərazisində - cənubda Manna, Midiya və Atropatena, şimalda isə Albaniya kimi ilk müstəqil dövlətlər yaranır. E.ə. VII əsrdən etibarən bu ərazilərdən skiflər keçməyə başlayır və onlar yerli mədəniyyətə öz təsirini göstərirlər.

Metalın bədii işlənməsi və bəzədilməsi baxımından – xəncərlər, qılınclar, baltalar, tunc qazanlar, hər növ bəzək əşyaları (asmalıqlar, dəlikli sancaqlar, boyunbağılar, qolbaqlar və s.) və geyim aksesuarları (kəmərlər, toqqalar, düymələr və s.) kimi sənət əsərləri böyük maraq kəsb edir. Bədii metalişləmə sənətindən danışarkən kiçik plastikanın unikal nümunələrini xatırlamamaq olmaz. Son Tunc və Erkən Dəmir dövrünün arxeoloji abidələrində çoxlu sayda quş və heyvan fiqurları, antropomorf fiqurlar, həmçinin orijinal, fantastik fiqurlar aşkar edilmişdir.

Toplanmış bütün bu nəhəng faktiki material tarixi və arxeoloji baxımdan öyrənilmişdir. Lakin, unutmaq olmaz ki, bu metal məmulatların üzərində onların sahiblərinin, yaradıcılıarının estetik zövqlərini, dini, ideoloji və bədii baxışlarını əks etdirən çoxsaylı naxışlı və sujetli kompazisiyalar var. Amma arxeoloji tədqiqatlar ilk növbədə tapılmış məmulatların mədəni layının tarixini müəyyənləşdirməyi qarşısına məqsəd qoyduğundan bu bədii kompozisiyalar sənətşünaslıq təhlilindən kənarda qalmışlar.

Düzdür, müxtəlif dövrlərdə əvvəlki tədqiqatçılar bədii metalın ayrı-ayrı əsərlərini nəzərdən keçirmişlər. Lakin həmin metodoloji materialın təhlili göstərir ki, bu əsərlər və onların analizi çox vaxt həmin məmulatların yarandıqları dövrün mədəni-tarixi kontekstindən məhrum olmuşlar.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycanın qədim dövrlərinə məxsus bədii metal nümunələri bir qayda olaraq müxtəlif vaxtlarda ölkə ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmişlər.

Bu səbəbdən də həmin materiallar onların yaranma tarixini və bu və ya digər arxeoloji mədəniyyətə mənsubluğunu müəyyən etməyi nəzərdə tutan tarixi-arxeoloji meyarlardan çıxış edərək öyrənilmiş və təsnifat-

laşdırılmışdır. Nəticədə bu məmulatların bədii xüsusiyyətləri arxeoloji tədqiqatlardan kənarda qalmışlar.

Həmin əsərlərin bədii xüsusiyyətlərinə incəsənətin bu və ya digər dövrlərindən bəhs edən sənətşünasların əsərlərində nisbətən daha böyük diqqət yetirilmişdir.

Bu tədqiqatda metodoloji material kimi həm müxtəlif zamanlarda qədim dövr Azərbaycan bədii metalı nümunələrini tədqiq etmiş arxeoloqların təsvirindən, həm də sənətşünasların təhlilindən istifadə olunmuşdur.

Azərbaycanın qədim metallurgiyası – Абибуллаев О.А «К вопросу о древней металлургии Азербайджана» (Баку, 1965), Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. «О древнейшей металлургии Кавказа» (М., 1968), Кошкарлы К.О. «Античная и раннесредневековая торевтика из Азербайджана» (Баку, 1985), Садыхзаде Ш.Г. «Классификация украшений Азербайджана эпохи поздней бронзы и раннего железа» (Баку, 1973), Göyüşov R. "Azərbaycan arxeologiyası" (М.,1986), Халилов Дж. «Бронзовые пояса, обнаруженные в Азербайджане» (М.,1962), Гуммель Я.И. «Раскопки в Нагорно-Карабахской автономной области» (Баку, 1939), Казиев С.М. «Археологические раскопки в Мингечауре» (Баку, 1949), Кесаманлы Г.П. «Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района» (Баку, 1999), Кушнарева К.Х., Чубинишвили Т.Н. «Древние культуры Южного Кавказа» (Л., 1970), Погребова М.Н. «Закавказье и его связи с Передней Азией в скифское время» (М., 1984) - kimi görkəmli sovet və Azərbaycan arxeoloqlarının əsərlərində tədqiq və təsvir olunmuşdur.

Qeyd olunan tədqiqatlarda bədii metal nümunələri arxeoloji tapıntıların tərkibində təsvir edilmişdir. Bu təsvirlərdə bir qayda olaraq həmin tapıntıların bədii xüsusiyyətlərinin sənətşünaslıq təhlilinə rast gəlmirik.

Cənubi Azərbaycan ərazisində aşkar edilmiş qədim bədii metal sənəti Amandry P.A. A propos de Tresor de Ziwiye (Leyden, 1968), Burton Brown T. «Excavations in Azerbaijan» (London, 1954), Dyson R.H. «Excavations at Ziwiyeh» (New York, 1966), Muscarella O.W. «Bronze and Iron» (New York, 1988) kimi xarici arxeoloqların əsərlərində də öz təhlilini tapmışdır.

Xarici arxeoloqların tədqiqatlarında qədim bədii metal məmulatları mədəni mühitin və tapıntının qonşu mədəniyyətlərin analoqları ilə tarixi-

mədəni qarşılıqlı əlaqəsi kontekstində nəzərdən keçirilmişdir.

Qədim bədii metal sənətinin bədii-texniki problemlərinə həm milli, həm də xarici sənətşünaslar: Тревер К.В. «Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. - VП в. н.э.» (М.-Л., 1959), Рзаев Н.И. «Искусство Кавказской Албании» (Баку, 1976), Луконин В.Г. «Искусство древнего Ирана» (М.,1977), Əfəndi R.S. "Azərbaycan incəsənəti" (Bakı, 2001), Садыхова С.Ю. «Взаимовлияния ювелирного искусства Азербайджана со странами Ближнего и Среднего Востока» (Баку, 2011), Маммадли Р.Ш. «Художественный металл эпохи ранних государств на территории Азербайджана» (Нальчик, 2012) və s. diqqət yetirmişlər.

Bu tədqiqatın metodoloji bazasını təşkil etsələr də adlarını çəkdiyimiz əsərlərin əksəriyyəti ya bədii metalın inkişafının konkret bir dövrünü, ya da qədim dövrdə bədii metal sənətinin inkişafının ayrıca problemini əhatə edir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın başlıca məqsədi qədim silahların, torevtika nümunələrinin və müxtəlif metal bəzək əşyalarının bədii xüsusiyyətlərini üzə çıxarmaqdır.

Qədim metal sənəti nümunələrinin xronoloji və bədii-texniki ardıcıllıqla nəzərdən keçirilməsi metalın bədii emalının bir çox bədii-texniki və stilistik üsullarının aşkara çıxarılmasına şərait yaradır.

Müxtəlif silah növlərinin, torevtika və bəzək əşyalarının kompleks halında tədqiqata cəlb edilməsi qədim Azərbaycanın konkret-tarixi və mədəni mühitində mövcud olmuş bədii dekorun aparıcı təmayüllərini müəyyən etməyə imkan yaratmışdır. Bədii metalın lokal və universal keyfiyyət və xüsusiyyətlərinin üzə çıxarılması isə bizim qədim metallurqların, torevt və zərgərlərin sənətkarlıqları haqqında təsəvvürümizi daha da genişləndirir.

Azərbaycanda və Cənubi Qafqaz, İran, Ön Asiyanın ona yaxın olan ərazilərində yaradılmış bədii metal nümunələrinin bədii-texniki üsullarının müqayisəsi metaldan analoji əsərlərin hazırlanması zamanı tətbiq edilən forma, məzmun və bədii üsulların "mədəni miqrasiyası" haqqında aydın təsəvvür yaratmağa imkan verir.

**Tədqiqatın vəzifələri.** Yuxarıda qeyd edilmiş məqsədlərdən irəli gələrək tədqiqatın qarşısında aşağıdakı vəzifələr durur:

- Qədim dövrə məxsus bədii metal nümunələrini aşkara çıxarmış arxeoloji ədəbiyyatın icmalını yaratmaq;

– Bədii metal nümunələrini onların funksional təyinatından, tipoloji və üslubi xüsusiyyətlərindən çıxış edərək sistemləşdirmək;
– Bədii metalişləmə sənətinin tarixi və mədəni-bədii mühitini müəyyən etmək;
– Silahqayırma sənətinin, torevtika nümunələrinin və zərgərlik məmulatlarının bədii-texniki ənənələrini aşkara çıxarmaq;
– Metaldan yaradılmış əsərlərin hazırlanması zamanı onların xarakterinə, üsullarına və bədii üslub yaratmağa təsir göstərmiş estetik və ideoloji zəminləri üzə çıxarmaq;
– Azərbaycan ərazisində ilk dövlərlətin formalaşdığı dövrdə bədii metalın üslubi xüsusiyyətlərini aşkara çıxarmaq;
– Metal plastikasında, zərgərlik sənətində və torevtikada bədii dekorun aparıcı təmayüllərini aşkarlamaq, məzmun-forma motivlərini müəyyən etmək məqsədi ilə qədim Qafqaz Albaniyasında bədii metalişləmə sənətinin ümumi mənzərəsini yaratmaq.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini Azərbaycan ərazisində tapılmış, qədim dövrə (Tunc - Azərbaycanda ilk dövlətlərin mövcud olduğu dövr) məxsus, metaldan hazırlanmış bədii məmulatlar təşkil edir. Dissertasiyada qədim silahın, torevtika və zərgərlik sənəti nümunələrinin arxeoloji artefaktları onların bədii xüsusiyyətlərini üzə çıxarmaq məqsədilə tədqiqata cəlb edilir.

Tədqiqatın predmetini isə bədii metal nümunələrinin bədii-texniki xüsusiyyətləri təşkil edir. Bədii metal məmulatlarının bədii-obrazlı quruluşunda üslubi xüsusiyyətlərin, bədii ənənələrin və qarşılıqlı təsirin aşkara çıxarılması da tədqiqatın predmetinə daxildir.

**Tədqiqatın metodları.** Dissertasiya işinin əsas tədqiqat metodu kimi, qədim metal məmulatlarının bədii xüsusiyyətlərini aşkara çıxarmağa imkan verən sənətşünaslıq təhlilindən istifadə edilmişdir.

Azərbaycan bədii metal nümunələrinin ikonoqrafik təhlili xronoloji ardıcıllığa və üslubi variantlığa uyğun, vahid arxeoloji mədəniyyətin hüdudları çərçivəsində aparılmışdır.

Ayrı-ayrı əsərlərin, onların qonşu ərazilərdə tapılmış analoqları ilə müqayisəli təhlili qədim bədii metal predmetlərində bədii üslubyaranma amillərini aşkara çıxarmağa imkan vermişdir.

**Tədqiqatın sərhədləri** qədim dövrdə Azərbaycanın Tunc dövrü (e.ə. IV-II minilliklər) və ərazisində ilk qədim dövlətlərin çiçəklənməsi dövrü

(e.ə. I minillik) ilə məhdudlaşan tarixi zamanın hüdudları çərçivəsində müəyyən edilmişdir. Tarixi Azərbaycanın bu qədim dövlətləri Cənubda (Araz çayından cənubda) Manna, Midiya, Atropatena, Şimalda (Kür-Araz ovalığında) Qafqaz Albaniyası olmuşlar. Tədqiqatın coğrafi sərhədlərini tarixi Azərbaycanın, İranın, Cənubi Qafqazın və Ön Asiyanın əraziləri əhatə edir.

**İşin elmi yeniliyi** tədqiqatın qarşısına qoyulmuş məqsəd və vəzifələrlə, həmçinin əvvəlki tədqiqatçılar tərəfindən indiyədək bu mövzunun öyrənilməsi dərəcəsi ilə müəyyən olunur.

Bu başlıca amillərdən irəli gələrək aşağıdakı nəticə və qənaətlər dissertasiya işinin elmi yeniliyini təşkil edir.

- Qədim dövr Azərbaycan bədii metalının bədii baxımdan daha dəyərli faktiki materialları sistemləşdirilmişdir;
- Metal istehsalının tarixi, sosial və mədəni mənzərəsi müəyyən edilmiş, həmçinin silahqayırmanın, torevtika əsərlərinin və zərgərlik sənətinin bədii-texniki ənənələri aşkara çıxarılmışdır;
- Bədii metalın bir çox nümunələrinin bədii-obrazlı sisteminə təsir göstərmiş aparıcı estetik və ideologi təsəvvürlər üzə çıxarılmışdır;
- Bədii metalişləmə sənətinin özünəməxsusluqları və bəduu metal məmulatlarının müxtəlif tipoloji qrupları üçün səciyyəvi olan bədii xüsusiyyətləri müəyyən edilmişdir;
- Sənətşünaslıq təhlili metodu ilə Azərbaycan ərazisində ilk dövlətlərin formalaşması və çiçəklənməsi dövründə bədii metal əsərlərinin bədii-üslubi xüsusiyyətləri aşkara çıxarılmışdır;
- Sənətşünaslıq tədqiqatları və ədəbiyyatı aləminə indiyədək yalnız arxeoloji hesabatlar və təsvirlər çərçivəsində qalmış qədim bədii metala aid çoxsaylı faktiki material əlavə edilmişdir.

**Tədqiqatın nəzəri və paktiki əhəmiyyəti** iddiaçının tədqiqatın qarşısında qoyulmuş vəzifələrə cavab olaraq hasil etdiyi nəticə və qənaətlərlə şərtlənir. Tədqiqatın nəzəri qənaətləri və analitik çıxarıçları qədim dövrdə Azərbaycanda bədii metalın daha obyektiv və hərtərəfli mənzərəsini yaratmağa imkan verir.

Dissertasiya işinin qənaət və müddəaları, həmçinin yeni faktiki materialı Qədim Azərbaycan incəsənəti fənninin tədrisində istifadə oluna bilər ki, bu da tədqiqatın praktiki əhəmiyyətini təşkil edir.

Dissertasiyada qədim Azərbaycanda bədii metalın inkişafı mövzu-

sunun faktoqrafik və nəzəri sərhədlərinin genişləndirilməsi bu problemin gələcək tədqiqatlar üçün zəmin rolunu oynaya bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan MEA Memarlıq və İncəsənət İnsitutunun “Təsviri və dekorativ-tətbiqi sənətlər” şöbəsində yerinə yetirilmiş və müzakirə edilərək layiqlı iş kimi açıq müdafiəyə buraxılmışdır.

Dissertasiyanın əsas qənaət və müddəaları müəllifin həm yerlı, həm də xarici nəşrlərdə dərc edlilmiş 7 məqaləsində öz əksini tapmışdır.

**Tədqiqatın sturukturu** Giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın mətni 148 kompyüter səhifəsindən ibarətdir. Dissertasiyanın əsas mətninə bədii metalın araşdırılmış artefaktlarının fotoşəkillərindən ibarət xüsusi Albom əlavə edilmişdir.

## DİSERTASİYANIN QISA MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**“Bəzək əşyalarının, silah və torevtika nümunələrinin hazırlanması və bəzədilməsinin bədii-texniki üsulları”** adlanan **I Fəsil** metal emalı və silahqayırma sənətinin təşəkkülü və inkişafının baş verdiyi mədəni-texniki mühitin xüsusiyyətlərinin təhlilinə, həmçinin bəzək, torevtika və silah nümunələrinin bədii-texniki xüsusiyyətlərinin aşkar edilməsinə həsr olunmuşdur.

**1.1. “Metal emalı və silah istehsalının tarixi, sosial və mədəni mənzərəsi”** adlı birinci yarımfəsildə metal emalı və silahqayırma sənətinin meydana gəlməsi və inkişafının baş verdiyi mədəni-texniki mühitin xüsusiyyətləri təhlil olunur.

Tunc və Erkən Dəmir dövründə Azərbaycan ərazisində məskunlaşmış tayfaların özünəməxsus tipoloji və üslubi keyfiyyətlərə malik mədəniyyəti və incəsənəti formalaşır. Həmin dövrdə bədii metalişləmə sənəti yüksək inkişaf səviyyəsinə çatır ki, bu da bu sənət növünün sonrakı əsrlərdə gələcək inkişafı üçün möhkəm zəmin yaradır. Bu dövrdə metaldan olan bədii məmulatların hazırlanması üçün lazım olan demək olar ki, bütün əsas texniki vərdişlərə yiyələnilir. Metalişləmənin tökmə, döymə, presləmə, quraşdırma, naxışaçma, zərbetmə kimi texnikaları bədii metal

sənətinin inkişafını şərtləndirən bədii-texniki xüsusiyyətlərə çevrilir[1].

**1.2. İkinci yarımfəsil - "Silahqayırma sənətinin bədii-texniki ənənələri"**ndən bəhs edir.

Son Tunc və Erkən Dəmir dövrü – tarixə miqrasiyalar və bununla əlaqədar hərbi çəkişmələr və ictimai-iqtisadi irəliləyişlər dövrü kimi düşüb. Məhz bu səbəb silahın bütün növ və tiplərinin inkişafında başlıca rol oynayıb. E.ə. II minilliyin sonlarından etibarən sənətkarlar silahın bədii şəkildə bəzədilməsinə daha çox diqqət ayırmağa başlayırlar ki, onların da arasında xəncərlər, qılınc və baltalar üstünük təşkil edir.

Azərbaycanda geniş yayılmış çoxsaylı tunc xəncərləri nəzərdən keçirərək onların bir sıra tiplərini (on bir tipoloji qrupu) müəyyən etmək və bu tiplərin daxilində bəzi variantları, həmçinin onların xronoloji hüdudlarını və yayılma ərazilərini müəyyən etmək mümkün olmuşdur. Nəzərdən keçirilmiş xəncərlərin yayılma ərazisini əsasən Şərqi və Mərkəzi Zaqafqaziya təşkil edir.

Son Tunc və Erkən Dəmir dövrlərinə məxsus zəngin kişi qəbirlərindən xəncərlərlə yanaşı tunc qılınclar da tapılmışdır. Həmin dövrdən bizədək müxtəlif metal emalatxanalarında (dəmirçixanalarda) hazırlanmış çoxlu sayda qılınclar gəlib çatmışdır. Mövcud arxeoloji material tunc qılıncların öz növbəsində bir sıra yarımbölmələrə malik üç əsas tipini müəyyən etməyə imkan verir.

Azərbaycanın tunc baltalarını təyinatına görə həm silah həm də əmək aləti kimi səciyyələndirmək olar. Ölkəmizin ərazisində tapılmış əksər tunc baltaların tətbiqi hissəsi ya hamardır ya da müxtəlif formalı qabarıq zolaqlardan ibarət naxışlara malikdir, bir çoxunun səthi isə oyma naxış elementləri ilə bəzədilmişdir[2].

**1.3. "Torevtika nümunələrinin bədii-texniki xüsusiyyətləri"** adlanan üçüncü yarımfəsil metal qabların və metaldan hazırlanmış, heykəlçiklərlə bəzədilmiş bədii əsərlərin istehsalına həsr olunmuşdur. İti polad alətlərlə metalişləmənin zərbetmə (çekanka), həmçinin forma üzrə basmanaxış və qəlib vasitəsilə damğabasma ənənələri Azərbaycanda qədim tarixə malikdir.

---

[1] Кошкарлы К.О. «Античная и раннесредневековая торевтика из Азербайджана», Б.1985, стр.18

[2] Казиев С.М. «О некоторых типах оружия из Мингечаура», МКА, Б.1951, вып. 2, табл.II (8, 9)

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı tunc və misdən hazırlanmış zəngin məişət ləvazimatları aşkar olunmuşdur. Onların arasında ən çox tapılan e.ə. II – I minilliyə məxsus tunc qazanlar və zoomorf qulplu, yaxud səthi oyma naxışlı rəsmlərlə işlənmiş böyük ölçülü qablardır.

**1.4.** Dördüncü yarımfəsil - **"Bəzək əşyalarının bədii-texniki xüsusiyyətləri" -** qədim dövr zərgərlik sənətinin inkişafından bəhs edir. Bütün zamanlar ərzində bədii metalın ən parlaq növlərindən biri bəzək əşyaları olmuşdur. Funksional təyinata malik torevtika və silahqayırma sənətindən fərqli olaraq bəzək əşyaları bədii metalın sırf dekorativ qolunu təşkil etmişdir. Qədim dövrün ustad-zərgərləri ayrı-ayrı xəlitələrin xüsusiyyətlərini yaxşı mənimsəmişdilər və onlardan müxtəlif təyinatlı bəzək əşyalarının hazırlanmasında istifadə edirdilər. Bəzək əşyalarının hazırlanmasında ən geniş yayılmış texnoloji proses mum modellər üzərinə tökmə idi ki, bu da məmulatların ən xırda hissələrini belə hazırlamağa imkan verirdi.

Tapılmış metal bəzək əşyalar üzərində yapışdırılmış və oyulmuş heyvan və quş təsvirləri Son Tunc və Erkən Dəmir dövründə Azərbaycanın bədii metal ustalarının bədii-üslubi ənənələrinin, peşəkar ustalığının və estetik meyarlarının inkişafından xəbər verir.

Zərgərlik məmulatlarının üzərinə bir qayda olaraq yüzillər ərzində cilalanmış, təkmilləşmiş spiralvari, rombşəkilli, dalğalı xətlərdən, torlardan və sair həndəsi fiqurlardan ibarət ornamentlər çəkilirdi[3].

Həndəsi fiqurlarla yanaşı, bədii metal nümunələrində bədii üslub səviyyəsi ilə seçilən zoomorf motivlərin təsviri də aydın nəzərə çarpır. Qədim Azərbaycanın bir çox bölgələrində məskunlaşmış insanlar təbii başlanğıclara və təbiət ünsirlərinə sitayiş edirdilər. Bu dini baxışlardan çıxış edərək, onlar öz etiqatlarını bu və ya digər dərəcədə əks etdirən rəmzi ornamental təsvirlər yaradırdılar. Metal bəzək əşyaları getdikcə dəst şəklini alaraq bir-birini tamamlayırdı.

**"Bədii metal məmulatlarında estetik və ideoloji təsəvvürlərin təzahürü"** adlanan **II Fəsil** qədim metal sənətində bir çox bədii obrazların əsasını təşkil edən dini-ideoloji təsəvvürlərin təhlilinə həsr edilib.

**2.1. "Totem etiqadlar və onların bədii metalda təzahürü"** adlı birinci yarımfəsildə qeyd olunur ki, Azərbaycanda totem kultlarının geniş

---

[3] Садыхзаде Ш.Г. «Древние украшения Азербайджана». «Ишыг» Баку 1971, стр 6-7.

yayılması silah və məişət ləvazimatlarının (keramika, kəmərlər, bəzək əşyaları, həmayillər və s.) üzərinə çəkilmiş çoxsaylı totemlərin təsvirlərində öz əksini tapmışdır. Totem kultlarının ən maraqlı fenomeni isə totemlərin metaldan hazırlanan heykəl fiqurlarıdır.

Naxçıvan, Mingəçevir, Xanlar və digər rayonlardan tapılmış tunc maral, öküz, quş və s. heyvan fiqurları hələ Orta Tunc dövründə Azərbaycan ərazisində totem kultlarının geniş yayılmasını sübut edir. Bu kultların Dəmir dövründə geniş yayıldığını əsaslandıran dəlillər də az deyil. Kult heykəlciklərdə və zoomorf qablarda totemizmin izləri həm Şimalı (Qarabağ, Dolanlar kəndi, İsmayıllı rayonu) həm də Cənubi Azərbaycanda (Həsənli, Mərlik) aşkar edilmişdir[4].

Məişət ləvazimatlarında və bəzək əşyalarında dini, rəmzi və dekorativ heykəltaraşlığın ən yüksək inkişafı qədim dövrə təsadüf edir.

Azərbaycanın tarixi ərazilərində qədim Manna, Midiya, Atropatena və Albaniya dövlətlərinin mövcud olduğu dövrlər özünün formalarının xırdalıqlarına qədər işlənməsi və estetikləşməsi ilə seçilən kiçik antropomorf və zoomorf heykəl təsvirlərinin fəal yaradılması ilə səciyyələnir.

**2.2. "Bədii metalişləmə sənətinin xüsusiyyətləri"** yarımfəsli dəmirçi, torevt və zərgərlik sənəti problemlərindən bəhs edir. E.ə. III minilliyin sonlarından etibarən Azərbaycan ərazisində mum qəliblər üzərinə tökmə texnologiyasından geniş istifadə edilməyə başlanır. Bu texnologiya ilə əsasən daha mürəkkəb formalara malik məmulatlar, məsələn, kiçik heykəltaraşlıq nümunələri, bəzək əşyaları və s. hazırlayırdılar.

Həmin üsulla düzəldilmiş Mingəçevirdən tapılmış maral şəkilli "Tunc asma bəzək" e.ə. II minilliyin ortalarına aid edilir. Maral fiqurlu, ölçüləri 4-12 sm. arasında dəyişən çoxsaylı belə asma bəzəklər Azərbaycanın Qərb və Şimal-Qərb regionlarında tapılmışdır.

Asma fiqurlardan başqa maral heykəlcikləri əsa başlıqları üçün də tökülürdü. Qəbirlərdən tapılmış belə başlıqlar onların dini xarakter daşıdığı nəticəsinə gəlməyimizə imkan verir. Maral fiqurlu belə başlıqlar arxeoloji qazıntılar nəticəsində həmçinin Şəmkir (e.ə. II minillik) və Ağsuda da aşkar olunmuşdur. Əsa başlığının Ağsu variantı əvvəlkindən onunla fərqlənir ki, burada maral fiquru başlığın üst hissəsini təşkil edən çevrədə yerləşir.

---

[4] Əfəndi R. Azərbaycan incəsənəti, Bakı, 2001.səh. 11,12,19,21

Həmin üsulla tökülmüş ördək şəkilli tunc asmalarda var. Ördək şəkilli asma bəzəklər iki variantda tökülürdü: 1-ci variant – içi dolu fiqurlar, 2-ci variant – içi boş fiqurlar. Mingəçevirdə tapılmış içi dolu nümunə 7 santimetrlik tökmə ördək fiqurundan ibarətdir. İçi boş variantlı, ördək şəkilli asmalar Azərbaycanda daha geniş yayılmışdı, onların analoqları Çovdar ve digər rayonlardan aşkar edilmişdir. Belə asma bəzəklər bəd ruhlardan qorunmaq üçün gözmuncuğu-zınqırov rolunu oynayırdılar.

Müxtəlif canlıların fiqurları təkcə mum qəliblərə tökməklə hazırlanmırdı. Tökmə texnalogiyasını sadələşdirmək üçün bəzən fiqurun təsviri formasını da sadələşdirmək lazım gəlirdi. Yastı variantda hazırlanmış belə fiqurlar ya tökməçinin ustalığının çatışmazlığından, ya da tez zamanda çoxlu sayda fiqur hazırlamaq istəyindən doğurdu. Yeri gəlmişkən, belə yastı fiqurlar ordək şəkilli kiçik ölçülü asmalar üçün də səciyyəvi idi.

Üçbucaqlı dəlik açılmış tunc öküz kəlləsi məhz həmin "yastı" heykəl variantlarındandır. Qarabağda tapılmış bu fiqur şübhəsiz ki, gözmuncuğu rolunu oynayır və dini məqsədlərlə istifadə olunurdu.

Daha mürəkkəb tökmə heyvan fiqurları Ağsuda aşkar edilmişdir. Biz burada at yüyənini tamamlayan üçölçülü (içi boş) tunc şir fiquru ilə rastlaşırıq.

Tökmə üsulundan məmulatın ilkin emalı, daha sonra döymə, oyma, quraşdırma məqsədi ilə də istifadə olunurdu. Bir-birini tamamlayan bir neçə texnalogiyadan istifadə edilməklə hazırlanan belə məmulatlara nümunə olaraq ucları qoyun kəlləli tunc bilərziyi göstərə bilərik. Tunc dövründə döymə və məftilçəkmə texnalogiyası da mənimsənilmişdi.

**2.3. "Ziviyyə və Həsənlidə tapılmış qızıl və gümüş məmulatların bədii xüsusiyyətləri"** yarımfəsli elmdə "çar dəfinəsi" adı almış Ziviyyə və Həsənli (Cənubi Azərbaycan) tapıntılarına həsr olunmuşdur. E.ə. IX – VII əsrlərə məxsus bədii məmulatların ən böyük kütləsi Ziviyyə adlanan yerdə, Dəmir dövrünün sonlarında ucaldılmış qalada aşkar edilmişdir[5].

Ziviyyədə tapılmış əsərlərin və məşhur sarkofaqın bədii-tipoloji təhlili bütün aydınlığı ilə belə bir təxmin etməyə imkan verir ki, bütün bu nümunələr bir üslubda – assuriya mövzusuna çox yaxın, lakin məşhur skif üslubunda yerinə yetirilmişdir. Bu fikri o da sübut edir ki, Ziviyyədən tapılmış gümüş sarkofaqdakı fraqmentlərdə Assuriya incəsənəti

[5] Dyson R.H. Excavations at Ziwiyeh. "American Journal of Archaeology".Vol.70. New York 1966, p. 124-129.

üçün səciyyəvi olan “qurban kəsmə” səhnəsi təsvir olunmuşdur. Sarkofaqın digər fraqmentində isə assuriya rəmzləri üçün xas olan xonçalıq üzərində dağ keçisi təsviri verilmişdir.

Sarkofaqdakı təsvirlərin üslublarının təhlili, buradakı geyim, saç düzümü və s. çoxlu detalları e.ə. VIII əsrin sonlarına aid erkən skif üslublarına məxsusluğundan xəbər verir. Belə qiymətli və unikal tapıntı sübut edir ki, Ziviyyədəki dəfinə çar qəbridir.

Assuriya zadəganlarının təntənəli geyimlərində yaxa bəzəklərinin mühüm hissələrindən sayılan qızıl döş nişanları da bizə məlum olan skif üslubunda hazırlanmışdır. Belə döş nişanları atların bəzədilməsində də istifadə edilirdi. Aşkar olunmuş bu əşyalar e.ə VIII və VII əsrin əvvəllərinə aid edilir.

Tapılmış predmetlər, bu nümünələrin rəsmi geyimlər üçün nəzərdə tutulmasına, qiymətli bəzək əşyaları və böyük rəhbərin, yaxud çarın fərqləndirici nişanlarının olmasına heç bir şübhə yeri saxlamır. Bunu oradan əldə edilmiş digər tapıntı, zəncir vasitəsilə boyundan asılan “qızıl daş pektoral” da sübut edir.

Analoji pektorallara Urartu çarlarının təsvirlərində də rast gəlinir və onlar hakimiyyətin və qüdrətin rəmzi mənasını daşıyırlar. Belə pektorallar, amma tuncdan hazırlanmış, vaxtı ilə Gədəbəydə və Luristanda, Dəmir dövrünün əvvəlinə məxsus skif qəbirlərindən aşkar edilmişdir.

Belə təxmin etmək olar ki, yuxarda haqqında danışdığımız plaketlər ox qablarını bəzəyə bilər, həmçinin çar qılınclarının dəstəyində dekorativ örtük rolunu oynaya bilər.

Ziviyyədə həmçinin, qılıncın qızıl başlığının fraqmenti, skif akinakına məxsus əsanın qızıl dəstəyi, at geyim ləvazimatının çoxlu sayda qızıl və gümüş fraqmentləri və döyüş silahlarının bir neçə nümunəsi aşkar edilmişdir.

Dəfinədən tapılmış və dünya muzeylərinə yayılmış nümunələr arasında üzərində dekorativ xonçalar həkk edilmiş, qızıl çar diodemi, üzərinə qızıl səpilmiş gümüş boşqab, həmçinin qızıl düymələr də vardır. Ziviyyə və Həsənlidə üzə çıxmış qızıl və gümüş məmulatların bədii xüsusiyyətləri çar ailəsi və ali ruhani əyanlar üçün nəzərdə tutulmuş dini və dünyəvi məmulatların hazırlanmasında yerli (Qafgaz), Ön Asiya və skiflərin bədii metalişləmə ənənələrinin qarşılıqlı təsirinin mövcudluğunu subut edir.

**III Fəsil – “Azərbaycan ərazisində ilk dövlətlərin təşəkkülü və inkişafı dövründə bədii metalın üslubi xüsusiyyətləri”** adlanır və həmin dövrə aid bədii metal nümunələrinin bədii üslubi xüsusiyyətlərindən bəhs edir.

**3.1. “İlk dövlətlərin təşəkkülü dövründə bədii metal sənətinin sosial və mədəni mənzərəsi”** adlanan birinci yarımfəsildə bədii metal sənətinin inkişafını şərtləndirən yeni sosial və mədəni mühit nəzərdən keçirilir.

E.ə. II minilliyin 2-ci yarısı - I minilliyin əvvəli Cənubi Qafqaz və Şimali-Qərbi İran ərazisində Son Tunc və Erkən Dəmir dövrünə təsadüf edir. İbtidai icma quruluşunun intensiv dağılması və erkən sinifli təsisatlara keçid mərhələsini təşkil edən həmin dövrdən Azərbaycana çoxlu sayda abidələr yadigar qalmışdır. Ərazi və mədəni mənsubiyyət baxımından onlar bir neçə qrupa bölünürlər. Onlardan biri-Qərbi Azərbaycan ərazisində kiçik Qafqazın hüdudlarını, eləcə də ətraf rayonları əhatə edən və Xocalı-Gədəbəy adlandırılan mədəniyyətin inkişafını əks etdirir.

Naxçıvan abidələri qrupu kimi tanınan digər qrup Naxçıvan MR və ona qonşu rayonların ərazisini əhatə edir. Əsasən metal məmulatlardan ibarət olan bu abidələr Urmiya ətrafı rayonlardan tapılmış materiallarla çoxlu oxşarlıqlara malikdir.

Talış və Muğan ərazisində məskunlaşmış tayfalardan qalma abidələr qrupu üçün uzun, nazik qılınclar və dəstəyi yəhərşəkilli xəncərlər səciyyəvidir.

Daha bir qrup abidələr Abşeronadək gəlib çatan Şimali-Şərqi Azərbaycanı əhatə edir. Bu abidələrdə Qayakənd - Xoroçoyev adı altında birləşən Dağıstan və Çeçen-İnquş mədəniyyəti abidələri ilə böyük oxşarlıqlar var.

**3.2. “Bədii metal əsərlərində üslubi xüsusiyyətlərin genezisi və qarşılıqlı təsiri”** adlanan yarımfəsildə e.ə I minillikdə bədii metal sənətinin üslubi köklərinin və üslubi “miqrasiyalarının” təhlilinə həsr olunub.

Tarixi Azərbaycan ərazisində qədim bədii metal sənətinin inkişafının ən son parlaq dövrlərindən biri Kür-Araz ovalığında Skif çarlığının, Cənubda – Arazın o tayında qədim Manna, Midiya və Atropatena dövlətlərinin yarandığı e.ə. I minilliyə təsadüf edir. E.ə.VIII-VI əsrlərdə Zaqafqaziyada, Kür-Araz ovalığında, həmçinin Cənubi Azərbaycanın Urmiyaətrafı ərazisində geniş yayılmış bədii metalın üslubi xüsusiyyətləri bu

xronoloji zaman kəsiyini metalın inkişafında ayrıca dövr kimi qeyd etməyə imkan verir ki, bunu tədqiqatçıların əksəriyyəti də qəbul edirlər.

Onu da nəzərə almaq lazımdır ki, sözügedən zaman kəsiyinə məxsus bədii metal nümunələri özündə əsasən kökü daha qədim dövrlərə gedib çıxan əlamətləri qoruyub saxlayır. Silahın, bəzək əşyalarının, avadanlığın bir çox formalarında da özünü göstərən belə davamlılıq əvvəlki dövrlərə nəzər yetirməyi aktuallaşdırır.

Qərbi və Simali Zaqafqaziyada geniş yayılmış Koban və Kolxida mədəniyyətinə xas predmetlər Mərkəzi və Şərqi Zaqafqaziyaya (Kür-Araz ovalığına) intensiv nüfuz etməkdə davam edir.

Bütünlükdə e.ə.VII-V əsrlərdə Zaqafqaziyada bir çox bədii və utilitar formaların ilk növbədə Kür-Araz ovalığının geniş ərazisində yayılmış dəmir və tunc məmulatların unifikasiyası müşahidə olunur.

Həmin səbəbdən bu dövrdə bədii metal mədəniyyəti özündən əvvəlki Son Tunc və Erkən Dəmir dövrlərinə nisbətən üslubi planda daha eynicinslidir. Lakin bu heç də istər qədim ənənələri, istərsədə e.ə.VII-VI əsrlərin tarixi şəraitinin xüsusiyyətləri ilə bir-birinə bağlı olan nə ayrı-ayrı abidələrin, nə də bölgələrin müxtəlifliyinə kölgə salmır.

Yuxarıda qeyd olunuduğu kimi, e.ə. VII-VI əsrlərdə Azərbaycan bədii metalının tipoloji simasını bir çox hallar ilə burada Urartu, Assuriya, Skif kimi gəlmə mədəniyyətlərin komponentlərinin mövcudluğu müəyyən edir.

Hazırkı dövrdə əhəmiyyətli dərəcədə yeni materialların toplanması bu problemə bir daha qayıtmağa və hər iki regionda bu və ya digər bir-birinə yaxın üslubi elementlərin yayılması qanunauyğunluqlarını, onların meydana gəlmə səbəblərini, eləcə də həmin elementlərin bütövlükdə həm Luristanın, həm də Qafqazın bədii metal mədəniyyətində oynadığı rolu müəyyən etməyə imkan verir. Bu regionların üslubi əlaqələrinə gözəl nümunə kimi, Şimali Qafqazda və Luristanda aşkar edilmiş pektoralları (sinəüstü bəzək əşyaları) göstərmək olar[6].

Tədqiq olunan dövrdə Zaqafqaziya Azərbaycanının əhalisi, həmçinin Şimali-Qərbi İran, xüsusən də Urmiya ətrafı ərazilərlə də sıx sənətkarlıq əlaqələri qururdu.

E.ə.II minilliyin sonu - I minilliyin əvvəllərində Şimali-Qərbi İranla Şərqi Zaqafqaziya əhalisi arasında əlaqələr müşahidə olunur.

---

[6] Луконин В.Г. Искусство древнего Ирана. Москва. «Искусство». 1977, стр.20

E.ə. I minilliyin üçüncü rübündə bü əlaqələr tam kəsilməsə də hər halda bədii metal sənətinin faktiki materialında artıq elə də qabarıq nəzərə çarpmır. Yəqin bu ondan irəli gəlir ki, Şərqi Zaqafqaziyada e.ə.VII-VI əsrə aid, üslubi baxımdan parlaq və kanonik abidələr araşdırmaya çox az cəlb olunmuşdur və onlar da əsasən nəzərəçarpan deyil. Halbuki, Urmiya ətrafı (Həsənli, Ziviyə, Mərlik, Amlaş və s.) ərazilərin materialları kifayət qədər köklü şəkildə tədqiq edilmişdir.

Bununla yanaşı, bəzi üslubi əlaqələrin izləri müşahidə olunur. Məsələn, Mil düzündə Kiçik təpədən tapılmış yüyən ağızlığı öz üslubu və bədii-texniki forması baxımından Şimali İranın Solduz məzarlığından aşkar edilmiş yüyən ağızlığı ilə oxşarlıq təşkil edir.

Yəqin ki, Həsənlinin bədii metal, elə keramika sənəti də Zaqafqaziyanın Yaloylutəpə (Azərbaycanın Qəbələ rayonunda) mədəniyyətində bədii metal və keramikanın üslubunun formalaşmasına hansısa təsir göstərmişdir. Lakin bu mövzu yenidən araşdırılmasını və daha geniş faktiki material tələb edir.

Müxtəlif üslubların sintezi yuxarıda qeyd etdiyimiz Ziviyyənin məşhur Sakkız dəfinəsində müşahidə olunur. Burada üç əsas – qədim Şərq (əsasən Assuriya), yerli (Manna) və Skif üslub komponenti bu kompleksin tədqiqatçıları tərəfindən hələ ilk vaxtlardan qəbul edilmişdir.

**3.3.** III Fəslin **“Qədim Albaniyada bədii metal sənəti”** adlı üçüncü yarımfəsli Qafqazın qədim Albaniya dövlətində torevtika, zərgərlik və silahqayırma sənətlərinin inkişafında aparıcı istiqamətlərin təhlilinə həsr olunub.

Zaqafqaziyanın ən qədim dövlətlərindən biri, müasir Azərbaycan dövlətçiliyinin və mədəni özünəməxsusluğunun formalaşmasında aparıcı rol oynamış, e.ə. I minilliyin ortalarında meydana gəlmiş Qafqaz Albaniyası olmuşdur.

Albaniyada metallurgiya, metalişləmə, zərgərlik sənəti, dulusçuluq, şüşə istehsalı, daş, sümük, ağac emalı, dəri istehsalı, toxuculuq və s. geniş inkişaf etmişdir. Xammal ehtiyatının zənginliyi və müxtəlif sənətlər üçün yardımçı materialların olması bu inkişafı şərtləndirən obyektiv səbəblər idi.

Silah və hərbi ləvazimat - dəmir qılınclar, xəncərlər, nizə və ox ucluqları, döyüş çəngəlləri, zirehlər və s. istehsalatda böyük yer tuturdu. Qılıncların bir neçə növü var idi. Bir qismi nazik tiyəli, uzun, kəskin uclu, dəstəyi sümük və taxta ilə örtülmüş olurdu. Belə qılıncların tiyələri

ikitərəfli iti olur, taxtadan hazırlanmış qını dəri ilə örtülürdü. Digər (azsaylı) qrupa aid qılınclar isə nisbətən qısa tiyəli və halqavari olurdular. Belə qılınclar sarmat mənşəli idilər.

Dəmir xəncərlər, əvvəlki tarixi dövrün tunc xəncərlərindən fərqli olaraq qısa və enli tiyəli idi. Onlar da bir neçə növlə təmsil olunurdu: birtərəfli tiyəyə malik, dəstəyi ilə ayıracağı olan xəncərlər; qılınc formalı - dəstəklə tiyə arasında ayıracağı olmayan xəncərlər; çox qısa, üçbucaq pazaoxşar tiyəli və nisbətən uzun dəstəkli xəncərlər. Bütün xəncərlərin qulpları görünür ki, taxtadan hazırlanırdı, elə qınları da taxtadan olur və dəri ilə bürünürdü.

Albaniyada, bu region üçün hələ e.ə I minillikdən etibarən səciyyəvi olan lövhəşəkilli asma medalyonlar geniş yayılmışdı. Bu medalyonlarda ya naxışbasma, ya da oyma yolu ilə çəkilmiş həm həndəsi, həm də sujetli motivlər öz əksini tapmışdır. Üzərində qıvrılmış maral (skif motivi) təsviri olan belə bir tunc medalyon İsmayıllı rayonunun Molla İsaxlı kəndində askar edilmişdir.

Bəzək əşyaları kimi, bilərzik, boyunbağı, üzük, toqqa, bazubənd, asma bəzəklər, sırğa və muncuqlardan istifadə olunurdu.

Bilərziklər əsasən tunc və dəmirdən hazırlanırdı, qızıl və ya gümüş bilərziklərə isə çox az rast gəlmək olur. Tunc bilərziklər ayaq və əl üçün olaraq iki yerə bölünür. Ayaq bilərzikləri daha həcmli və kobud olur, üzərində naxış vurulmurdu. Belə bilərziklərə daha əvvəlki dövrlərə məxsus komplekslərdə rast gəlinir. Əl bilərzikləri isə ayaq bilərziklərindən öz yüngüllüyü və formasının zərifliyi ilə fərqlənir. Əl bilərzikləri bir neçə növə ayrılır. Onlardan biri sonadək qapadılmamış kəsilmiş ucları olan bilərziklərdir, digəri, ucları enlənmiş, bəzən ortası da enləndirilən bilərziklərdi. Onların daha bir növü - enli ucları olan və ortaya doğru əyilmiş bilərziklərdir. E.ə. II-I əsrlərə aid edilən bu bilərziklər Albaniyanın mərkəzi rayonları üçün səciyyəvidir.

Boyunbağılar tuncdan və dəmirdən hazırlanırdı. Onlar Albaniya tarixinin daha erkən dövrləri üçün xarakterikdir. Bu boyunbağılar arasında yastılanmış, spiral şəklində qıvrılmış ucluqları olanlar çoxluq təşkil edir. Onların başqa bir növü isə enli, ucları birləşməyən boyunbağılardır.

Üzüklər də rəngarəngdir. Müxtəlif növlərindən biri dəyirmi linzaşəkilli qaş taxılmış, tunc məftildən hazırlanmış üzükdür. Bu üzüklər b.e. II-III əsrlərinə aiddirlər. Bəzi üzüklərə yumurtavarı daş və ya şüşə qaşlar

qoyulmuşdur.

Fibulalar iki əsas qrupa bölünür: qundaqlı və sancaqlı. Onlar gümüş, tunc və dəmirdən hazırlanırdı. Həncəmalı erkən Roma fibulalarina, gövdəsinin ucunda çıxıntısı olan, üçbucaq və ya dairəvi arxalıqlı, həncəma dəstəkli, minalanmış, kamanşəkilli sarınmış fibulalara rast gəlinir.

Bəzək əşyaları arasında tunc və dəmirdən hazırlanmış sancaqlar böyük yer tutur. Onlar bir-birindən başlığının formasına görə fərqlənirlər. Şarşəkilli, kubşəkilli, buynuzabənzər və s. formalı başlığa malik sancaqlar var.

Sırğalar da öz formasına görə rəngarəngdir. Onlar qızıl, gümüş və tuncdan hazırlanıblar. Onların bəziləri kombinə edilib-daş-qaşla bəzədilib. Tapılmış əşyalar arasında qızıldan hazırlanmış yumaq formalı, atşəkilli, nalabənzər və asmalıqlı halqavari və s. sırğalara rast gəlmək mümkündür. Gümüş sırğalar da formasına görə rəngarəngdir: yumurtavari, asmalıqlı və piramida formasında yerləşdirilmiş aşağıdan dörd kürə lehimlənmiş sırğalar belələrindəndir.

Metal qablar arasında ən çox rast gəlinən piyaləşəkilli qablardır. Dekorativ, yaxud sujetli oyma ilə işləmələr bu qabların həm iç, həm də çöl səthini bəzəyir. Yerli ustaların belə dekorativ işlərinə nümunə olaraq Lənkərandan tapılmış, daxili səthində boynunda dalğalanan şarf olan dağ keçisinin təsviri verilmiş piyaləni göstərmək olar.

Qədim Albaniyada bədii metal sənəti daha əvvəlki bədii metal ənənələrini özündə ehtiva etmiş və bu sənətə yerli – alban, antik – yunan-roma və atəşpərəstlik ənənələrini də əlavə etmişdir.

**Nəticə** hissəsində tədqiqatın əsas elmi yekunları ümumiləşdirilir və müəllif tərəfindən Azərbaycanın qədim dövr bədii metal sənətinin inkişafını şərtləndirən mühüm amillər müəyyən edilir:

– Azərbaycanın qədim dövr bədii metal sənəti mənşəyini tunc və dəmir dövründən götürən dərin tarixi köklərə malikdir. Qədim dövrün bədii-texniki ənənələrinin ən yüksək inkişaf zirvəsi Azərbaycanın tarixi ərazisində ilk dövlətlərin meydana gəlməsi dövrünə təsadüf edir.
– Metalın bədii işlənməsinin bədii-texniki üsullarının formalaşması tökmə, döymə, qəlibləmə, quraşdırma sahəsində vərdişlərin mənimsənilməsi ilə müşahidə olunur. Silahların, torevtika məmulatlarının, bəzək əşyalarının hazırlanması və bəzədilməsində yeni

bədii və texniki ənənələr meydana gəlir.

- Metalın bədii işlənməsinin ən parlaq nümunəsini qədim dövrün metal plastikası təşkil edir. Metaldan hazırlanmış çoxsaylı zoomorf heykəllər özündə totem kultunu əks etdirir. Belə metal heykəllərin hazırlanması zamanı sənətkarlar heyvanın real obrazını əks etdirməyə deyil, onun bədii üslubi həllinə çalışırdılar ki, bu da heykəli ayin və dekorativ rəmzlərin daşıyıcısına çevirirdi.
- Azərbaycanın qədim dövr bədii metal sənətinin üslubi xüsusiyyətləri iki əsas amillə - tapılmış metal məmulatların bu və ya digər arxeoloji qrupa aid olması ilə, və yerli bədii metal istehsalı ənənələrinin təsir dairəsinə daxil olan qonşu regionların – Urartu, Babilstan, Assuriya, Hetto-Finikiya, Elam, Luristan və qədim İran kimi qədim sivilizasiyaların bədii metal mədəniyyəti ilə mövcud olmuş bədii əlaqələrlə şərtlənir. Skif üsulunda hazırlanmış və skif və yerli bədii metalişləmə ənənələrinin sintezi nəticəsində yaradılmış əsərlərdə yerli bədii metal sənətinin stilistikası özünün parlaq təzahürünü tapmışdır.
- Qədim dövrdə bədii metal sənəti ənənələrinin sonuncu çiçəklənmə dövrü Azərbaycan tarixinin alban dövrünə düşür. Bu dövrdə bədii metal sənəti kökü əvvəlki dövrlərə gedib çıxan yerli ənənələrlə səciyyələnir. Silahın, bəzək əşyalarının və dini və dünyəvi xarakterli metal ləvazimatların hazırlanmasında və bəzədilməsində dəqiq bədii-ənənəvi varislik müşahidə olunur.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Древний художественный металл Азербайджана. Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət müzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri N 2-3 (4-5), Bakı, 2010
2. Искусство художественного металла в древней Албании. «Mədəniyyət dünyası», elmi-nəzəri məcmuə, № XXI, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2011
3. Исторический, социальный и культурный фон металлообработки в древнем Азербайджане. Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət müzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri N 2 (8), Bakı, 2011
4. Художественные особенности торевтики эпохи поздней бронзы и раннего железа. «Mədəniyyət dünyası», elmi-nəzəri məcmuə, № XXII, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2011
5. Искусство металлопластики в древнем Азербайджане. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. №12, Bakı, 2011.
6. Скифские мотивы и образы в искусстве древнего Азербайджана. В сб. Культура народов Причерноморья, научный журнал, № 243. Симферополь. 2012.
7. Художественный металл эпохи ранних государств на территории Азербайджана. В сб. «Язык, культура, этикет в современном полиэтническом пространстве». Материалы Международной конференции. Нальчик. 2012.

**Райиха Шаиг кызы Маммадли**

# ХУДОЖЕСТВЕННЫЙ МЕТАЛЛ ДРЕВНЕГО АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В диссертации анализируются особенности ремесла художественной металлообработки Азербайджана эпохи древности. В исследование, базирующееся, в основном, на археологическом материале, дается искусствоведческий анализ произведений художественного металла, исследуется историческая, социальная и культурная среда, в которой происходило формирование художественного металла, и тем самым, освещаются проблемы развития искусства металлообработки.

Во **Введении** дается сведение об актуальности исследования, степени исследованности темы, о целях и задачах исследования, об объекте и предмете исследования, о методологической основе, границе, научной новизне работы, о теоретической и практической ценности, об апробации и структуре исследования.

**Первая глава** называется «Художественно-технические приемы изготовления и декорирования оружия, торевтики и украшений». Глава состоит из 4-х подглав: 1. Исторический, социальный и культурный фон металлообработки и оружейного производства; 2. Художественно-технические традиции оружейного искусства; 3. Художественно-технические особенности произведений торевтики; 4. Художественно-технические особенности украшений.

**Вторая глава** называется «Отражение эстетических и идеологических представлений в произведениях художественного металла» и состоит из 3-х подглав: 1. Тотемистические верования и их отражение в художественном металле; 2. Особенности ремесла художественной металлообработки; 3. Художественные особенности золотых и серебряных изделий, обнаруженных в Зивийе и Хасанлу.

**Третья глава** называется «Стилистические особенности художественного металла в период формирования и расцвета ранних государств на территории Азербайджана» и состоит из 3-х подглав: 1. Социальный и культурный фон ремесла художественного металла в период формирования ранних государств; 2. Генезис и взаимовлияния стилистических особенностей в произведениях художественного металла; 3. Искусство художественного металла в древней Албании.

**В Заключении** подводятся основные итоги исследования.

**Rayiha Shaiq Mammadli**

## ART METAL OF ANCIENT AZERBAIJAN

## SUMMARY

The features of art metal of ancient Azerbaijan are analyzed in the dissertation. The main objective of the research, created on the basis of the archeological materials, is detection of art features of the ancient weapon, touterics and various metal jewelers.

Information on the dissertation's theme, the level of the problem's investigation, the purposes and aims of the research, the object and subject of the research, the methodological basis, the research borders, the scientific novelty, the scientific and practical value, approbation and structure are given in the **Introduction**.

**Chapter I.** is called "Art-technical methods of manufacturing and decoration of the weapons, toreutics and jewelers". Chapter consists of four parts: 1. Historical, social and cultural background of metal working and weapon production; 2. Art-technical traditions of the weapon art; 3. Art-technical features of the toreutics; 4. Art-technical features of Jewelers.

**Chapter II** is called "Reflection of esthetic and ideological representation in the products of art metal". It consists of three parts: 1. Totemic religion and its reflection in art metal; 2. Features of art metal working; 3. Art features of the gold and silver products found in Ziwiyeh and Hasanlu.

**Chapter III** is called "Stylistic features of art metal in the period of formation and blossoming of the early states in the territory of Azerbaijan" and consists of three parts: 1. The social and cultural background of art metal in the period of formation of the early states; 2. Genesis and interferences of stylistic features in the products of art metal; 3. Art metal in ancient Albania.

The main results of the research are brought in the **Conclusion.**